Filologiya üzrə fəlsəfə doktoru Vüsalə Nəsibovanın "Mirzə İbrahimovun ədəbi-tənqidi görüşləri" ("Elm və təhsil", 2025) monoqrafiyası (redaktoru dosent Afaq Ramazanova, rəyçisi dosent Şakir Albalıyevdir) XX əsr Azərbaycan ədəbiyyatının və ədəbi-tənqidi fikrinin görkəmli nümayəndəsi Mirzə Əjdər oğlu İbrahimovun ədəbi-tənqidi görüşlərinə həsr olunub. Afaq Xürrəmqızı kitaba "Redaktordan" sözündə xalq yazıçısı M.İbrahimovun ədəbiyyatımız və ədəbi fikir tariximizdəki müstəsna xidmətlərindən söz açıb yazır: "Əslən Cənubi Azərbaycandan olan Mirzə İbrahimov sovet dövrünün bütün leqaliyalarından və imtiyazlarından istifadə etsə də, həmin dövrün demək olar ki, bütün ad və titullarına layiq görülsə də (Sosialist Əməyi Qəhrəmanı, Xalq yazıçısı, Stalin mükafatı laureatı, Azərbaycan Dövlət mükafatı laureatı, Nehru mükafatı laureatı və s.), hər zaman bolşevik-sovet idarəetmə maşınının qabaqcıl mövqelərində olsa da (Azərbaycanın Ali Sovetinin Rəyasət Heyətinin sədri, Azərbaycan SSR Maarif komissarı və naziri, Yazıçılar İttifaqının sədri, ittifaqın birinci katibi, Azərbaycan Dövlət Opera və Balet teatrının direktoru, Xalq Komissarları Sovetinin İncəsənət İdarəsinin rəisi, dəfələrlə müxtəlif çağırışlarda SSRİ Ali Sovetinin, Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun direktoru və s.), daxilindən gələn vətənpərvərliyi, milliliyi itirməmiş, həyatı boyu Azərbaycanın humanitar fikrinə sədaqətlə xidmət göstərmişdir. Onun Azərbaycan Milli Elmlər Akademiyasının ilk təsisçilərindən biri olmasını, Akademiyanın həqiqi üzvü seçilməsini, bununla da ölkəmizdə akademik ədəbiyyatşünaslıq elminin formalaşmasında göstərdiyi əhəmiyyətli rolunu xatırlamaq kifayətdir.

Mirzə İbrahimov Azərbaycan ədəbiyyatında cənub mövzusunda yazıb-yaradan nəslin parlaq nümayəndəsidir. Əslən güneydən olması, II Dünya Savaşı zamanı bir müddət Güney Azərbaycanda olması nəticəsində ədib ədəbiyyatımızı "Cənub hekayələri" silsiləsi ilə zənginləşdirmişdir.

Amma təbii ki, Mirzə İbrahimovun milliliyi və vətənpərvərliyi onun milli kadrların yetişdirilməsi sahəsindəki fəaliyyəti ilə yanaşı, Azərbaycan SSR Ali Sovetinin sədri olduğu dövrdə verdiyi mühüm bir qərarda aydın şəkildə özünü büruzə verir. 1956-cı ildə Mirzə İbrahimov sədr olduğu dövrdə Ali Sovet "Azərbaycan SSR-in dövlət dili haqqında Azərbaycan SSR-in Konstitusiyasına maddə əlavə edilməsi haqqında Qanun" qəbul edir. Bolşevik-sovet ideologiyasının tüğyan etdiyi dövrdə, repressiya maşınını idarə edən Stalinin ölümündən qısa bir müddət sonra Azərbaycanda belə bir qanunun qəbul edilməsi o dövr üçün çox cəsarətli bir addım idi. Təbii ki, bu addıma görə o, ciddi təzyiqlərə və tənqidlərə də məruz qalmışdır. Mirzə İbrahimovun Azərbaycan dilinə belə həssas münasibəti onun dilimizə dair yazdığı "Dilimizin inkişaf yolları haqqında", "Azərbaycan dili", "Dil və ədəbiyyat dərslərini nümunəvi təşkil edək" və "Azərbaycan dili dövlət idarələrində" və s. məqalələrində öz əksini tapmışdır. 1956-cı ilin sentyabrında qələmə aldığı son məqalə həm də yeri gələndə Mirzə İbrahimovun heç nədən və heç kimdən çəkinmədən (yuxarıda sadaladığımız leqaliyalara və imtiyazlara baxanda əminliklə söyləyə bilərik ki, ədibin itirəcəyi çox şey var idi) öz vətəndaşlıq və vətənpərvərlik mövqeyini nümayiş etdirdiyini göstərir. Təbii ki, Mirzə İbrahimovun özü də o dövrdə belə fikirlər söyləməyin necə təhlükəli olduğunu anlayır və məhz bu səbəbdən öz mülahizələrini "Leninin fikirlərinə" istinadla irəli sürür, "sovet quruluşunun qələbəsi" adlandırır" (s.4-5).

# MİRZƏ İBRAHİMOVUN ELMİ İRSİ ARAŞDIRILIB




Bu minvalla milli ruhlu ziyalımız olan Xalq yazıçımızın ədəbi-tənqidi fikirlərinin tədqiqata gətirilməsinin vacibliyini, əhəmiyyətini göstərir. Vüsalə Nəsibova kitaba yazdığı Ön sözdə ədibin həyatı və yaradıcılığı ilə bağlı ümumi məlumatları diqqətə çəkir:

"Mirzə Əjdər oğlu İbrahimov (1911-1993) XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən görkəmli simalardan biridir. Yazıçı, dramaturq, ictimai-siyasi və mədəniyyət xadimi olmaqla yanaşı, ədəbiyyatşünas-alim, tənqidçi, sənətşünas və mədəniyyətşünas kimi də zəngin irs qoyub-getmişdir. Ədəbi və ictimai fəaliyyətə lap gənc yaşlarından - 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərindən başlayan Mirzə İbrahimov yaradıcılığın bütün sahələrində paralel çalışmış, gərgin ictimai-mədəni fəaliyyəti ilə yanaşı, şeirlər, hekayələr, povestlər, romanlar yazmış, oçerklər, publisist yazılarla mətbuatda ardıcıl çıxış etmiş, eyni zamanda da ədəbi-tənqidi məqalələri ilə müasir ədəbiyyatın yaranmasına təkan vermişdir. Ədibin elmi fəaliyyətə başlaması da 1930-cu illərə təsadüf edir. Böyük Azərbaycan yazıçısı və mütəfəkkiri Cəlil Məmmədquluzadə haqqında ilk sistemli tədqiqat olan "Böyük demokrat" monoqrafiyasını yazması Mirzə İbrahimova ciddi ədəbiyyatşünas şöhrəti gətirmiş, ömrünün sonunacan bu sahədə ardıcıl fəaliyyətinə rəvac vermişdir. Mirzə İbrahimov müasir ədəbiyyatşünaslıq elminin yaradıcıları sırasında olub, humanitar sahədə Azərbaycan Milli Elmlər Akademiyasının ilk təsisçilərindən, həqiqi üzvlərindən biridir. Akademik Mirzə İbrahimovun Azərbaycanda akademik ədəbiyyatşünaslıq elminin formalaşması və inkişafında layiqli xidmətləri vardır" (s.8-9).

Bu zəmin üzərində fikirlərini qurduqdan sonra Vüsalə Nəsibova tədqiqatın əhəmiyyətinə də toxunur: "Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərini araşdırmaq həm ədibin öz yaradıcılığını yenidən dərk etmək və qiymətləndirmək baxımından əhəmiyyət daşıyır, həm də ümumən XX ?sr ?d?biyyatı v? ?d?bi-t?nqidi fikrini s?ciyyələndirmək, müasir önəmini üzə çıxarmaq cəhətdən aktualdır. Bütün bu məqamlar özlüyündə tədqiqatın aktuallığını şərtləndirir, akademik Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərinin öyrənilməsinin əhəmiyyətini göstərir" (s.10).

Daha sonra müəllif tədqiqatını 3 fəsil üzərində qurub davam etdirir. "Mirzə İbrahimov klassik Azərbaycan ədəbiyyatının tədqiqatçısı kimi" adlı ilk fəsildə akademik M.İbrahimovun tənqid və ədəbiyyatşünaslıq fəaliyyətindəki klassik ədəbiyyatla bağlı araşdırmalarına diqqəti çəkib yazır: "Mirzə İbrahimovun "araşdırmalarının səciyyəvi keyfiyyətlərindən biri də Azərbaycan ədəbiyyatının Şərq və Qərb mədəniyyəti kontekstində təqdim olunmasıdır". Bütövlükdə "ədəbi-elmi yaradıcılığı başdan-başa Azərbaycan ədəbiyyatının təbliğinə həsr olunmuş" Mirz? İbrahimovun milli ədəbiyyatın qədim və orta dövrü ilə bağlı araşdırma və məqalələrini iki yerə bölmək olar. 1) Bilavasitə klassik poeziyanın tədqiqi nəticəsində yaranan araşdırma və məqalələr; 2) Klassik mövzuya və klassik ədəbiyyat haqqında tədqiqatlara dair yazılmış məqalə və resenziyalar" (s.19).

Vüsalə Nəsibova "M.İbrahimov və "Molla Nəsrəddin" ədəbi məktəbi" adlı 2-ci və "M.İbrahimov və müasir ədəbi proses" adlı 3-cü fəsil ətrafında da maraqlı təhlillər aparmış, akademikin Azərbaycan ədəbiyyatşünaslığı yolundakı mühüm xidmətlərini sistemli şəkildə nəzərdən keçirmiş, dolğun və mükəmməl bir əsər ortaya qoymuşdur.

***Şakir ƏLİFOĞLU***